*Teymur BÜNYADOV,*
*akademik*



# MƏŞƏL

Əfsanəvi dağlar diyarı Şuşa xalqımıza çox dahilər bəxş etmişdir. Heç şübhəsiz ki, belə dahilərdən biri də Firidun bəy Köçərlidir. Nuru ilə, zəkası ilə, əməli ilə xalqına zənginlik gətirən, şöhrətə yetirən Firidun bəy. Ən şərəfli ada, dərin ehtirama, ən yüksək mükafata layiq olan Firidun bəy. Ləkəsiz, bənzərsiz, günahsız, nuranə bir insan olan Firidun bəy. Dinimizin, dilimizin qayğıkeşi, təlimimizin, tərbiyəmizin cəfakeşi Firidun bəy. Qəribə taleli, qərib taleli Firidun bəy. Qazaxlıların görən gözü, döyünən ürəyi Firidun bəy.

Ey böyük insan, əşrəflərin əşrəfi, ey böyük alim, alimlərin alimi, sənin əvəzsiz xidmətinə Şəki-Şirvan borcludu, Lənkəran-Muğan borcludu, Qarabağ, Naxçıvan, Gəncəbasar, Borçalı çökəyi borcludu. Cəmi Azərbaycan, bütün Türk dünyası borcludu. Lakin Qazax borcu, qazaxlıların borcu daha çox, daha əvəzsiz, daha unudulmazdı. Sizi gözlərinin işığı, qəlblərinin yarasığı bilirlər. Peyğəmbər kimi, baba kimi, ata kimi, tərbiyəçi kimi, alim kimi, ali insan kimi sevirlər. Hər məclisdə söhbətin, hər yerdə dürrükəlamların söylənilir. Biz də mətləblə bağlı əsasən sizin qazaxlılara olan xidmətinizdən heç olmasa, bir az danışaraq ruhunuzu şad eləmək istəyirik...

Firidun bəy Əhməd bəy oğlu Köçərli 1863-cü ilin boranlı günlərində Şuşada dünyaya göz açıb, gəlişilə xalqımızın taleyi üzünə gülüb. 1872-ci ildə Mirzə Kərim Münşizadənin məktəbində fars dilini öyrənib. 1875-ci ildə Şuşada rus məktəbini oxuyub. 1885-ci ildə Köçərli Qori Müəllimlər Seminariyasını bitirib. Həmin ildən İrəvanda gimnaziyada Azərbaycan dili və şəriətdən dərs deyib. 1895-ci ildə Qori Seminariyasında müəllimlik fəaliyyətinə başlayıb.

Firidun bəy ömrünün qırx ilini elmi yaradıcılığa həsr edib. Qiymətli əsərlərilə xalqımızın böyük ədibləri sırasında özünə fəxri yer tutub. Neçə-neçə əsərlərilə mənəvi aləmimizi zənginləşdirib, saflaşdırıb.

Yusif Vəzir Çəmənzəminli yazır: "...Firidun bəy ən müqtədir, ən sevgili ədiblərimizdən biridir. Bu şəxs ədəbiyyat tariximizi yazmaq ilə bütün keçmişimizi diriltdi, şairlərimizin ülvi ruhlarını canlandırdı və həyati-fikirlərimizi təbii yoluna saldı". Nə qədər dəqiq, səmimi qiymət...

Böyük əməyin, inadkar axtarışların, dərin düşüncələrin, geniş qəlbin, iti gözlərin məhsulu olan ikicildlik "Azərbaycan ədəbiyyatı" adlı dahiyanə əsəri xalqımızın mənəvi dünyasına bəxş edilən tükənməz xəzinədir, şərəfli inci, işıqlı bir yoldur. Görgötür dünyamızdır, aydınlıq səmamızdır. Qazaxla əlaqədar nələr öyrənmədim bu bənzərsiz incidən, nələr götürmədim bu əvəzsiz mənbədən. Bu əsərlər mənəviyyatımız, mənəvi saflığımız, ədəbiyyatımız, tariximiz, etnoqrafiyamız, xalq yaradıcılığımızdır. Adət-ənənəmiz, təlim-tərbiyəmizdir. Alimin bu əsərində neçə-neçə qazaxlı şairin kamal dünyası üzə çıxarılıb, işıq görüb. Olmasaydı bu böyük alim, nə olardı onların taleyi. Batıb-qalardı tarixin qaranlıq səhifələrində...



*Firidun bəy Köçərli və həyat yoldaşı Badisəba xanım Köçərli-Vəkilova 1910-cu il, Qori şəhəri*

Dilimizin təmizliyini, gözəlliyini qorumaq, onu daha da zənginləşdirmək üçün canını yandırıb, mübarizə aparıb. F.Köçərlinin Abdulla Şaiqə göndərdiyi bir məktub bu baxımdan nə qədər təsirli, nə qədər ibrətamizdir: "Guya, siz Ağazadə ilə əlbir olubsunuz, bizim ana dilimizi əlimizdən alıb, bizi Osmanlı edəsiniz... Hamı borcludur o dilə rövnəq verib, onu dövlətləndirəsiniz. Siz isə "ana" sözünü "validə"yə və ya "annə"yə, "ata" sözünü "padər"ə, "uşaq" sözünü "cocuğ"a, "bala" sözünü "yavru"ya çöndərməklə dilimizi əlimizdən almaq istəyirsiniz. Məgər "ana", "annə"dən pisdir? Qərəz, məsələdə böyük səhviniz var".

Firidun bəy həm də qazaxlıların doğma, əziz yeznəsidir. Xətirli, hörmətli, izzətli yeznəsi. Bizlərə oğuldan, qardaşdan, atadan irəli olan yeznəmiz. Salahlı İsmayıl ağa ilə Firidun bəy Qoridə təhsil zamanı tanış olublar. Sonra bu tanışlıq dostluğa, qardaşlığa çevrilib. Firidun bəy bir neçə dəfə Salahlı elində dostunun qonağı olub. Davranışı, nəzakəti, savadı ilə ürəklərə yol tapan Firidun bəy İsmayıl ağanın atası Mustafa ağanın dərin hörmətini qazanmısdı. Elə bu görüşlərdə Badisəba xanım Firidun bəyin qəlbini oğurlamışdı. İsmətilə, xilqətilə, gözəlliyilə. Bu niyyətə Badisəbanın atası, qardaşı, qohumları razı qalmışdılar. Qoşa talelər qoşa yanmış, qoşa arzularla qanadlanmışdı...

Böyük çətinlikdən sonra qatar Poylu körpüsünü keçir. Qorxu-hürkü, nigarançılıq arxada qalır. Seminariyanın Qazaxda açılması böyük bir sevincə səbəb olur. Qazaxlıların taleləri üzlərinə gülür, müqəddəs bir ziya ocağı közərir, alışır, alovlanır. İstidən, işıqdan çoxları kama yetir, arzular kama çatır...

1918-1920-ci illərdə Qazax seminariyasının ən qızğın, qaynar çağları başlayır. Yoxsulların gözü açılır, istedadlı uşaqlar savadlanır, qanadlanır. Firidun bəyin iştirakı və tapşırığı ilə əllərində şamçıraq qapı-qapı, elbəel gəzdilər, yaxşıların yaxşısını seçib, məktəbə cəlb elədilər. Yeməkləri verildi, əyin-başları bəzədildi. Səliqə-sahmanlı yataqxana ilə tələbələr təmin edilir. Əzizlənir, tələbkarlıq artırılır.

Yüksək keyfiyyətə, dərin savada, geniş erudisiyaya malik müəllim heyəti Firidun bəyin ətrafında cəmləndi. Müxtəlif fənlər üzrə Əhməd ağa Mustafayev, Əli Hüseynov, Yusif Qasımov, Məhiş Hüseynov, Süleyman ağa Qayıbov, Mahmud Yolçuyev, Məcid bəy Şıxlinski, Mirzə Vəlizadə və başqaları dərs keçir, tərbiyə verirlər, işıqlı gələcəyə yol göstərirlər. Bu ocaqdan pərvazlanan Səməd Vurğunlar, Osman Sarıvəllilər, Mehdi Hüseynlər, İsmayıl Şıxlılar, yüzlər, minlər xalqına şöhrət gətirir...

Firidun bəy Qazaxda pir oldu, ocaq oldu. Zülməti yaran işıq oldu. Qazaxlılar pərvanələrtək dolandılar bu nurun başına, bu maarif carçısının həndəvərinə. Çox çəkmədi ağlagəlməz müsibət oldu, dəhşət qopdu, dünya boyda kədər Qazağı başına bürüdü. Seminariya qəm libası geydi, çöhrələr pərişanlandı, ədalətsizlik, qanunsuzluq ərşə dayandı, nurani kişini zindana saldı, işgəncələrə, iftiralara məruz qaldı. Sorağı Gəncə zindanından gəldi. Badisəba xanımın uğursuz taleyi daşa çırpıldı. Tapdı könül həmdəmini, etirazını aləmə car elədi...

Firidun bəyin tutulması Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanova xəbər verildi. O, dərhal Firidun bəyin buraxılması barədə Gəncəyə teleqram vurdu. Gecikdi zaman, gecikdi Badisəba xanımın harayı. Artıq canilərin göstərişilə arxadan tuşlanan namərd gülləsindən Firidun bəy qana boyandı...

Bu acı xəbəri sətirlərə düzərkən qulağıma güllə səsi gəldi. Sümüyüm eyməndi, ürəyim üşüdü, gözlərim yaşardı, tüklərim biz-biz oldu, ürpəşdi. Atamın nurani əksi gözüm önündə canlandı. Qazaxda Şəkərin qalasında atamın güllələndiyinə görə, qızıl qana boyandığına görə, günahsız qurban olduğuna görə.

Firidun bəy Köçərli 1920-ci ildə 57 yaşında dünyadan köçdü. Səssiz-səmirsiz, kimsəsiz, nə el bildi, nə də oba. Xalqımıza qurban olan günahsız qurban oldu. Yarımçıq ömrünü mənalı yaşadı, xalqının qəlbində yuvalandı, əbədiləşdi. Bəli, elə yanana, el yanar. Zaman keçdikcə Firidun bəy məşəli daha da alovlandı, nur saçdı, işıq payladı...